**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SƏLİMİ ƏRUZ MƏHƏLLƏH FƏRİBORZ**
**MƏHƏMMƏDRZA oğlu**

# İRAN İSLAM RESPUBLİKASINDA ƏCNƏBİLƏRİN HÜQUQİ VƏZİYYƏTİ VƏ BEYNƏLXALQ HÜQUQ

5603.01 – "Beynəlxalq hüquq; insan hüquqları"

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyasının**

**AVTOREFERATI**

**BAKI - 2018**

Dissertasiya işi Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "Beynəlxalq ümumi hüquq" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **hüquq üzrə fəlsəfə doktoru,**<br>**dosent Ə.Q.MƏMMƏDOV** |
| **Rəsmi opponentlər:** | **hüquq üzrə elmlər doktoru**<br>**professor O.F.ƏFƏNDİYEV**<br><br>**hüquq üzrə fəlsəfə doktoru**<br>**N.H.QƏLƏNDƏRLİ** |
| **Aparıcı təşkilat:** | **AMEA Hüquq və İnsan Haqları İnstitutu** |

Dissertasiya işinin müdafiəsi "___" "___________" 2018-ci ildə saat "____" Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi, Bakı Dövlət Universiteti, birinci korpus, 901 №-li auditoriya.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2018-ci il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya**
**şurasının elmi katibi, hüquq**
**üzrə fəlsəfə doktoru, dosent:** **N.H.MEHDİYEV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Müasir dövr yeni düşüncə tərzi, insanların hüquq və azadlıqlarının qorunması və bu istiqamətdə dövlətlər arasında beynəlxalq əməkdaşlığın formalaşdırılması ilə səciyyələnir. İnsan hüquqları və əsas azadlıqları naminə əməkdaşlıq, bir çox təhlükələrin qlobal xarakter alması və onların fərdi qaydada ayrı-ayrı dövlətlər tərəfindən həllinin qeyri-mümkün olması ilə bağlıdır. Yalnız ümumi səylər nəticəsində dövlətlər meydana gələn problemləri həll edə bilərlər. Bu zaman dövlətlər üçün başlıca meyar hər hansı bir əlamətindən asılı olmayaraq insanların hüquq və azadlıqlarının tanınması və qorunmasıdır. Humanitar sferada beynəlxalq hüquqi əməkdaşlıq zərurəti bir çox problemlərin həlli məqsədi üçün meydana gəlir. Humanizm ideyaları əsasında formalaşan beynəlxalq təhlükəsizlik sistemi mədəniyyət, elm, təhsil sahəsində əməkdaşlığın möhkəmləndirilməsini; insanlar və təşkilatlar arasında əlaqələrin inkişaf etdirilməsini; üzvləri müxtəlif dövlətlərin yurisdiksiyasında olan ailələrin birləşməsini; insan hüquqlarının kütləvi formada pozulmasına qarşı mübarizəni; xalqlar arasında qarşılıqlı anlaşmanı; siyasi, sosial, iqtisadi problemlərin həlli istiqamətində beynəlxalq əməkdaşlığın genişləndirilməsini tələb edir. İnsanlıq meyarı müasir beynəlxalq münasibətlər sisteminin əsas ünsürü olduğu üçün ümumi, demokratik məkan yaratmaq başlıca vəzifəyə çevrilməkdədir. Bir çox dövlətlər insan haqlarının qorunmasını başlıca vəzifə, məqsəd kimi bəyan edirlər.

Müasir dövrdə İran İslam Respublikasının (bundan sonra İran) da digər dövlətlərlə qaşılıqlı siyasi, iqtisadi, mədəni, elmi-texniki və d. əlaqələri yeni məzmun kəsb etməkdədir. Daxili işlərə qarışmamaq, digər dövlətlərin suverenliyinə hörmət etmək mövqeyində dayanmaqla İran dövləti özünün milli problemlərini həll etməyə çalışır. Həm ikitərəfli əsaslarla ayrı-ayrı dövlətlərlə, həm də çoxtərəfli qaydada, beynəlxalq təşkilatlarla müxtəlif istiqamətli əməkdaşlıq genişlənməkdədir. Digər dövlətlərlə əlaqələrin genişlənməsi, zəngin təbii resurslara malik olması, əcnəbilərin ölkəyə axınını da sürətləndirməkdədir. Biznes və elm adamlarının, tələbələrin, incəsənət xadimlərinin, turistlərin gediş-gəlişi davamlı olaraq artmaqdadır. Hər bir əcnəbi İranda olarkən, eyni zamanda İran vətəndaşları digər dövlətlərdə olarkən gediş-gəliş qaydaları, hansı hüqüq və vəzifələrə malik olması, hüquqlarının qorunması və d. məsələlərlə üzləşir.

Məlum olduğu kimi əcnəbilərin hüquqi statusu, onların mənsub olduğu dövlətin və qəbul edən dövlətin hüququ ilə müəyyən edilir. Bu statusun müəyyən olunması, müvafiq olaraq qeyd olunan dövlətlərin milli



hüquq sistemləri arasında münasibətlərin yaranmasını şərtləndirir. Milli hüquq sistemləriarası münasibətlər həm normayardıcılığı prosesində (milli qanunvericiliyin resepsiyası, beynəlxalq müqavilə normalarının maddi-hüquqi inkorporasiyası zamanı), eləcə də subyektiv hüquqların realizəsi prosesində (kolliziya normasının tətbiqi zamanı) yaranır. Milli hüquq sistemlərinin məzmunca fərqli olması, onlar arasında müəyyən ziddiyyətlərin yaranması ilə də müşayət olunur. Bu ziddiyyətlərin həlli təcrübəsi göstərir ki, beynəlxalq hüquq normaları (xüsusilə də beynəlxalq müqavilə) olmadan onların səmərəli həll edilməsi qeyri-mümkündür.

Qeyd olunanlardan belə bir ilkin nəticəyə gəlmək olar ki, əcnəbilərin hüquqi vəziyyətinin müəyyən edilməsinin normativ sisteminə əcnəbinin mənsub olduğu və gəldiyi dövlətin hüquq normaları ilə yanaşı, beynəlxalq hüquq normaları da daxildir. Başqa sözlə, hüquqi tənzimetmə baxımından əcnəbilərin hüquqi vəziyyətinin müəyyən edilməsi dövlətin həm daxili hüququnun, həm də beynəlxalq hüququn birgə tənzimetmə predmetini təşkil edir. Əcnəbilərə əlverişli rejimin tətbiqi isə dövlətdaxili qanunvericiliklə beynəlxalq hüquq normalarının uzlaşdırılması formasında ola bilər. Belə uzlaşma isə yalnız qəbul dövlətin ümumi qaydasının *(ordre public)* qorunması şərtilə beynəlxalq hüquq normalarının dövlətdaxili hüquqa münasibətdə üstünlüyünün qəbul edilməsi ilə mümkündür. İran hüquq sisteminin özünəməxsusluğunu şərtləndirən xüsusiyyət, onun ümumi qaydasını şəriət normalarının təşkil etməsidir. Belə ki, İranın hüquq sistemi islam qaydaları əsasında formalaşmışdır və Konstitusiya (m.4) qəbul edilən hər hansı qanunvericilik normasının şəriət normalarına zidd olmamasını təsbit edir. Bununla yanaşı, İranda əcnəbilərin hüquqi vəziyyəti ilə bağlı məsələlər həmçinin beynəlxalq hüquq normaları ilə də tənzimlənir. Bu səbəbdən əcnəbilərin hüquqi statusuna aid İran qanunvericiliyinin islama zidd olmayan beynəlxalq hüquq normaları ilə uyğunlaşdırılması məsələlərin tədqiq edilməsi elmi cəhətdən mühüm əhəmiyyət kəsb edir.

Qeyd etdiyimiz kimi müasir dövrdə dövlətlərarası əlaqələrin genişlənməsi nəticə etibarı ilə onların vətəndaşları arasında qarşılıqlı münasibətləri də artırır. Bu istər turizm sahəsinin inkişafı, istər iqtisadi-ticarət, elmi-mədəni və s. əlaqələrin qurulması, istərsə də müxtəlif problemlərlə əlaqədar yaranmış qaçqınların məsələləri ilə əlaqədardır. Vətəndaşların xarici ölkələrdə sərbəst fəaliyyəti zamanı onların olduğu ölkənin daxili və beynəlxalq hüquqdan istifadə etməsi imkanı hər bir dövlətin xarici siyasətində vacib amillərdəndir. İranda əcnəbilərin hüquqi statusunun müəyyənləşdirilməsinə dair qanunvericiliyin elmi cəhətdən tədqiq edilməsi məsələsi xüsusi maraq doğurur. Əcnəbilərin hüquqi vəziyyəti ilə bağlı beynəlxalq hüququn dün-

yada qəbul olunmuş, uzun illərdən keçdikcə tədricən təkmilləşmiş, formalaşmış norma və prinsipləri artıq ölkələrin yurisdiksiyasında əsas kimi qəbul olunmaqdadır. Əcnəbilərin hüquqi vəziyyətinin tənzimlənməsində beynəlxalq hüquq normaları mühüm əhəmiyyət kəsb edir. İranın daxili qanunvericilik qaydaları gözlənilməklə, bu sahədə beynəlxalq müqavilələrə qoşulması prosesi genişlənməkdədir. Belə bir şəraitdə özünəməxsus siyasi-mədəni inkişaf xətti ilə seçilən İranda əcnəbilərin hüquqi statusu ilə bağlı olan məsələlərin araşdırılması kifayət qədər aktual mövzudur.

İranda əcnəbilərə aid müxtəlif sahələrdə hansı rejimlərin tətbiqi, ölkə daxilində əcnəbilərə verilən hüquqların müəyyənləşdirilməsi və bu kimi məsələlər tədqiqatın aktuallağını səciyyələndirir.

**Mövzunun işlənmə dərəcəsi.** Hüquq ədəbiyyatında əcnəbilərin hüquqi vəziyyətinin müxtəlif aspektləri ilə bağlı araşdırmalar aparılmışdır. Məsələn, Azərbaycanda əcnəbilərin hüquqi vəziyyətinin müəyyən edilməsi probleminin beynəlxalq-hüquqi aspektləri h.ü.e.d., prof. Ə.İ.Əliyevin “Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin statusunun beynəlxalq hüquqi tənzimlənməsi: nəzəriyyə və praktika” adlı doktorluq dissertasiya işində, mülki-hüquqi aspektləri h.ü.f.d. R.A.Mirzəyevin “Əcnəbi fiziki və hüquqi şəxslərin əmlak hüquqlarının müdafiəsi” adlı fəlsəfə doktorluğu dissertasiyasında tədqiq edilmişdir.

Rus hüquq doktrinasında problemin beynəlxalq hüquqi aspektləri K.İ.Manolov tərəfindən (Əcnəbilərin hüquqi statusunu tənzimləyən beynəlxalq hüququn prinsipləri), konstitusiya hüquq aspektləri Y.V.Gerasimenko tərəfindən (Əcnəbilər: anlayışı və onların konstitusiya-hüquqi statusunun məzmunu) və s. araşdırılmışdır.

İran hüquq doktrinasında bu problemin kompleks elmi tədqiqatı aparılmamışdır. Belə ki, İran hüquqşünasları tərəfindən problemin bu və ya digər cəhətləri (M. İbrahimi: “Əcnəbilərlə nikah”; M. İrfani “Beynəlxalq ticarət əməkdaşlığı” və s.) tədqiq edilmiş, və ya problem məqalələr səviyyəsində (Əhməd Gasimi Şub: “Beynəlxalq insan hüquqları haqqında sənədlərə əsasən əcnəbilərin statusu”; İbrahim Sancari: “Beynəlxalq hüquqda və islamda əcnəblərin hüquqları”; Zeynəb İmani: “İranın hüquqi sistemində əcnəbilərin hüquqi statusu”; Əlirza Məhəmmədzadə., Əmir Olfətiməneş: “İranın hüquqi sistemində və beynəlxalq sənədlərdə xarici vətəndaşların məşğulluğunun müqayisəli təhlili”) araşdırılmışdır.

**Tədqiqatın obyektini** beynəlxalq hüquq normaları ilə milli qanunvericiliyin qarşılıqlı əlaqəsi müstəvisində İranda əcnəbilərin hüquqi vəziyyətinin müəyyən edilməsi problemi təşkil edir.

**Tədqiqatın predmeti** isə əcnəbilərin hüquqi vəziyyətinə dair İran



qanunvericiliyinin beynəlxalq hüquq normalarına uyğunlaşdırılması, bu istiqamətdə beynəlxalq hüquq normalarının milli implementasiyası, əcnəbilərin İranda müxtəlif münasibətlərdə iştirakının maddi və prosessual-hüquqi tənzimlənməsi ilə bağlı hüquqi məsələlərdən ibarətdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Dissertasiya işində əsas **məqsəd** İranın milli qanunvericiliyi ilə beynəlxalq hüquq normalarının qarşılıqlı əlaqəsi çərçivəsində əcnəbilərin hüquqi vəziyyətinin xüsusiyyətlərini müəyyən etmək, bu sahədə beynəlxalq hüquq normalarının İranın hüquq sistemində implementasiyası istiqamətində elmi-nəzəri əsaslar formalaşdırmaqdan ibarətdir.

Qarşıya qoyulan məqsədə nail olunması üçün dissertasiya işində aşağıdakı **vəzifələr** müəyyən olunmuşdur:

– beynəlxalq hüquq normaları və İran qanunvericiliyinin müqayisəli təhlili əsasında əcnəbi anlayışını və onu hüquqi məzmununu müəyyənləşdirmək;

– əcnəbilərlə bağlı beynəlxalq hüquq normalarının İranın hüquq sistemində yerini müəyyən etmək;

– əcnəbilərlə bağlı beynəlxalq hüquq normalarının İran hüquq sistemində tətbiq xüsusiyyətlərini aydınlaşdırmaq;

– İranda əcnəbilərin hüquq vəziyyətini tənzim edən prinsipləri müəyyənləşdirmək;

– əcnəbilərə tətbiq edilən rejimləri tədqiq etmək;

– əcnəbilərin hüquqi vəziyyəti ilə bağlı İran qanunvericiliyinin inkişaf istiqamətlərini araşdırmaq;

– əcnəbilərin xüsusi (ailə-nikah, vərəsəlik və s.) münasibətlərdə iştirakının xüsusiyyətlərini müəyyən etmək;

– əcnəbilərin əmlak hüquqlarının məhdudlaşdırılmasının hüquqi əsaslarının təhlil etmək;

– İranda əcnəbilərin sosial təminatı məsələlərini araşdırmaq;

– İranda əcnəbilərin hüquqlarının prosessual-hüquqi təminatı xüsusiyyətlərini müəyyən etmək;

– İranda əcnəbilərin hüquq və azadlıqlarının məhkəmə müdafiəsinin xüsusiyyətlərini təhlil etmək.

**Tədqiqatın metodoloji əsasını** ümumi elmi metodlar və xüsusi hüquqi metodlar təşkil edir. Dissertasiyada daha çox formal-məntiqi metoddan (əcnəbilərin hüquqi vəziyyəti ilə bağlı beynəlxalq hüquq normalarının, İran qanunvericiliyinin təhlilində), müqayisəli hüquq metodundan (əcnəbilərin hüquqi vəziyyəti ilə bağlı İran qanunvericiliyinin beynəlxalq hüquq normalarına uyğunluğunun müəyyən edilməsində) və tarixi metoddan

(əcnəbilərin hüquqi vəziyyətinin hüquqi tənzimlənməsinin inkişaf xüsusiyyətlərinin müəyyən olunmasında), sistemli analiz metodundan (əcnəbilərin hüquqi vəziyyəti ilə bağlı beynəlxalq hüquq normaları sisteminin və İranın qanunvericilik sisteminin müəyyən edilməsində) istifadə edilmişdir. Bundan başqa tədqiqat işində konkret-sosioloji və digər elmi metodlar da tətbiq edilmişdir.

**Tədqiqatın elmi-nəzəri əsası.** Tədqiqat işi yazılarkən azərbaycan, iran, rus və digər əcnəbi alimlərin əsərlərindən istifadə edilmişdir. Azərbaycanlı hüquqşunas alimlərdən Ə.İ.Əliyev, Ə.İ.Sadıqov, Ə.Q.Məmmədov, L.H.Hüseynov, N.A.Səfərov, O.F.Əfəndiyev, Ş.İ.Əliyev, R.A.Mirzəyev, R.F.Məmmədov, R.K.Məmmədov, T.İ.Hüseynov və b. əsərləri tədqiq edilmişdir.

İran alimlərindən İbrahim Məhəmməd, Mahmud Səlcuqi, Mirdamad Mustəfa, Ktozyan Nasir, S.H. İnayət, L. Cüneydi, H.R. Nikbəxt, C.İ. Güdərzi, İ. Şüariyan, M. Həbibi, J. Habibzadeh və d. əsərləri tədqiqat mövzusu üçün elmi mənbə kimi istifadə edilmişdir.

Digər ölkələrin alimlərinin əsərlərindən də geniş istifadə edilmişdir. Onların sırasında G.X.Areçaqa, L.P.Anufriyeva, O.R.Boyars, M.M. Boquslavskiy, K.Q.Borisov, A.Cassese, V.N.Denisov, K.Q.Dmitriyeva, Donna E. Arzt, A.S.Dovqert, H.G.Gharavi, M.M.Rebekka, M.A. İqamberdiyev, V.A.Kartaşkin, M.Khadduri, K.İ.Manolov, Q.Lauterpaxt, L.V.Lazarev, İ.İ.Lukaşuk, L.D.Timçenko, F.İ.Xaçim və s. kimi alimləri göstərmək olar.

**Tədqiqatın normativ bazası** qismində əcnəbilərin hüquqi vəziyyətinə dair mövcud olan çoxtərəfli və İranın bağladığı ikitərəfli beynəlxalq müqavilələrdən, beynəlxalq təşkilatlar çərçivəsində qəbul olunan, özündə tövsiyə xarakterli davranış qaydaları nəzərdə tutan beynəlxalq aktlardan, İranın əcnəbilərin hüquqi vəziyyətinə dair normativ aktlarından, o cümlədən Konstitusiya, Mülki Məcəllə, Mülki-Prosessual Məcəllə, Cinayət Məcəlləsi, Cinayət-Prosessual Məcəllə, Əcnəbi vətəndaşlar haqqında Qanun, Xarici sərmayələrin müdafiəsi və təşviqi haqqında Qanun, Sərmayələr haqqında qanun və s. istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Qeyd etmək lazımdır ki, təqdim olunan dissertasiya işi İran qanunvericiliyi ilə beynəlxalq hüquq normalarının qarşılıqlı əlaqəsi kontekstində İranda əcnəbilərin hüquqi vəziyyətinin araşdırılmasına həsr olunmuş ilk monoqrafik xarakterli tədqiqatdır. Bununla əlaqədar olaraq, mövzu elmi baxımdan, şübhəsiz, yeniliyə malikdir.

Tədqiqat işinin elmi yeniliyini özündə ifadə edən aşağıdakı **yeni elmi müddəalar** müdafiəyə təqdim olunur**:**



1. İranda əcnəbilərin hüquqi vəziyyəti insan hüquqlarına universal (liberal) yanaşma ilə islam (dini) konsepsiyanın uzlaşdırılması müstəvisində müəyyən edilə bilər. İranın insan hüquqları sferasında mövcud olan bir çox universal beynəlxalq müqavilələrdə iştirak etməsi, formal-hüquqi baxımdan nə qədər islam konsepsiyasının universal yanaşmaya yaxın olmasına dəlalət etsə də, islam hüquq düşüncəsi və bundan irəli gələn yerli ənənələr bir o qədər milli qanunvericiliyin özünəməxsus olmasını şərtləndirir. Əcnəbi vətəndaşların öz dövlətləri ilə bağlılığı və qarşılıqlıq prinsipinə müvafiq olaraq İran vətəndaşlarının xarici dövlətlərdə hüquqlarının müdafiəsi tələbi əcnəbilərin hüquqi vəziyyəti ilə bağlı qanunvericiliyin müəyyən edilməsinə əsaslı təsir etsə də, islam hüquq düşüncəsindən irəli gələn tələblər nəzərə alınmadan bu sahədəki beynəlxalq hüquq normalarının milli-hüquqi implementasiyası qeyri-mümkün görsənir.

2. Əcnəbilərin hüquqi vəziyyətinin müəyyən olunmasında beynəlxalq hüquq normaları və İran qanunvericiliyi eyni məqsədə xidmət etsə də, bu məqsədə yanaşma tərzi fərqlidir: a) beynəlxalq hüquq normaları millətin və onun təmsilçisi kimi dövlətin iradəsini ifadə etdiyi halda, İran qanunvericiliyinin əsaslandığı şəriət normaları Allahın iradəsinin ifadəçisi kimi çıxış edir; b) beynəlxalq hüquq normalarından fərqli olaraq şəriət normaları dini-etik ünsürləri özündə birləşdirməklə hüquqi davranış qaydaları kimi tətbiq edilir; c) beynəlxalq hüquq normalarına görə insanın azadlığı digər insanın azadlığı ilə məhdudlaşırsa, şəriət normalarına görə isə bu azadlıq onun müəyyən etdiyi imperativ qadağalarla məhdudlaşır. İran qanunvericiliyinə əsasən, bu qadağaların təsbit olunduğu şəriət normaları İran hüquq sisteminin ümumi qaydasını (*ordre public*) təşkil edir.

3. Beynəlxalq hüquqi sənədlərə və dövlətlərin qanunvericiliyinə müvafiq olaraq "əcnəbi" anlayışı geniş mənada şərti xarakter kəsb etməklə olduğu dövlətin vətəndaşlığına malik olmayan (apatridlər daxil olmaqla) şəxsləri, dar mənada isə olduğu dövlətin vətəndaşı olmayan, lakin digər dövlətin (və ya dövlətlərin) vətəndaşlığına malik olan şəxsləri ehtiva edir. İran qanunvericiliyinin əsaslandığı şəriət normaları baxımından isə müsəlmanlar İslam cəmiyyətinin fərdləridirlər və Quranın təbirincə ümmət adlandırılır. Müsəlmanlar belə bir cəmiyyətdə iman, məqsəd, ideologiya, öhdəçilik və d. stimullar baxımından müştərəkdirlər və bir-birinə qarşı birlik nümayiş etdirirlər. Bu birlik hissi İslamı tanınmış beynəlxalq sərhədlər çərçivəsindən çıxarır və əcnəbi termini bu baxımdan öz mənasını itirir. Lakin hüquqi kateqoriya olaraq "əcnəbi" termininin İran dövlətinə məxsus olmayan şəxsləri ifadə etməsini nəzərə alsaq, o halda İran qanunvericiliyinə görə, yalnız müsəlman olan və müsəlman olmayan əcnəbiləri fərqləndirmək

olar. Fərq isə yalnız onlara tətbiq olunan hüquqi rejimdə ifadə oluna bilər.

4. Əcnəbilərin hüquqi vəziyyəti hüquq institutu olaraq kompleks xarakterlidir. Bu xarakter ilk növbədə əcnəbilərin hüquqi vəziyyətinin müəyyən edilməsində konstitusiya, inzibati, mülki, əmək, ailə, cinayət və s. kimi hüquq sahələrinin normalarından istifadə olunmasında ifadə olunur. Digər tərəfdən, beynəlxalq hüquq normaları ilə dövlətdaxili hüquq normalarından paralel istifadə olunması da tənzimetmənin kompleks xarakterli olmasını şərtləndirir. Əcnəbilərin hüquqi vəziyyətinin müəyyən olunmasının hüquqi mənbəyi qismində İranla yanaşı, əcnəbinin mənsub olduğu dövlətin daxili qanunvericiliyi də çıxış edir. Lakin sonuncunun tətbiq edilə biləcək xüsusi hüquq normaları İran hüquq sisteminin ümumi qaydasına (*ordre public*) zidd ola bilməz.

5. Əcnəbilərin hüquqi vəziyyətinə aid İran qanunvericiliyinin beynəlxalq hüquq normalarına uyğunlaşdırılması Konstitusiya ilə müəyyən olunur. Uyğunlaşdırma birbaşa və ya qeyri-birbaşa formada mümkündür. Sonuncu halda İran bu və ya digər beynəlxalq müqavilədə iştirak etmədən, həmin müqavilənin müddəalarından qanunvericilikdə istifadə edir. İran hüquq sistemi üçün əlverişli ola biləcək digər forma regional beynəlxalq təşkilatlar (məsələn, İslam Konfransı Təşkilatı) çərçivəsində əcnəbilərə aid beynəlxalq hüquq normalarının şəriət normalarının tələblərinə uyğunlaşdırılması ola bilər. İslam dövlətlərini birləşdirən beynəlxalq təşkilat çərçivəsində həyata keçirilən bu formada normayaradıcılığı sırf islam beynəlxalq hüquq yaradıcılığı olmaqla, universal normayaradıcılığına paralel deyil, ona əlavə və ya onun davamı kimi çıxış edir.

6. Əcnəbilərin hüquqi vəziyyətinə aid beynəlxalq hüquq normalarının İran hüquq sistemində implementasiyası ümumi qaydanın (*ordre public*) pozulmaması şərti ilə beynəlxalq hüquq normalarının üstünlüyünün qəbul edilməsi ilə həyata keçirilir. Yəni əcnəbinin malik olduğu hüquq beynəlxalq müqaviləyə əsaslansa belə, onun məzmunu və həyata keçirilməsi İran qanunvericiliyi ilə müəyyən edilir.

7. Əcnəbilərin hüquqi statusunun ümumtanınmış insan hüquqlarına uyğunlaşdırılması İranın digər dövlətlərlə qarşılıqlı əməkdaşlığını gücləndirir, sosial-iqtisadi inkişaf üçün xarici sərmayə qoyuluşu daha geniş miqyasda həyata keçirilməsinə təkan verir. Eyni zamanda qarşılıqlıq prinsipinə müvafiq olaraq İran vətəndaşlarına digər dövlətlər ərazisində daha əlverişli rejimin tətbiq edilməsinə kömək edir.

8. Əcnəbilərin hüquqi statusunda prosessual təminatlar əhəmiyyətli rola malikdir. Beynəlxalq hüquq normaları və İran qanunvericiliyinə əsasən hər bir əcnəbi öz hüquqlarını müdafiə etmək məqsədilə məhkəməyə müraciət etmək hüququna malikdir. Bu hüququn realizəsi istiqamətində *jus solvi* prinsipinin *de lege ferenda* İran qanunvericiliyinə daxil edilməsi və *de lege lata* məhkəmə təcrübəsində nəzərə alınması, beynəlxalq hüquq normalarının implementasiyası baxımından mühüm əhəmiyyət kəsb edir.



**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiya işinin nəzəri və təcrübi əhəmiyyəti onun aktuallığı ilə izah edilməlidir. İranda əcnəbilərin hüquqi vəziyyətinin beynəlxalq hüquq baxımından araşdırılması İran qanunvericiliyinin müsbət və mənfi cəhətlərinin üzə çıxarmaq baxımından əhəmiyyətlidir. Tədqiqat işi mövzu ilə bağlı yeni elmi araşdırmalar üçün nəzəri əsas rolunu oynaya bilər.

Dissertasiya işinin materialları, müəllifin irəli sürdüyü təklif və tövsiyələr əcnəbilərlə bağlı İran qanunvericiliyinin və hüquqi təcrübənin beynəlxalq hüquq normalarına və standartlarına uyğunlaşdırılması və təkmilləşdirilməsində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universiteti Hüquq fakultəsinin "Beynəlxalq ümumi hüquq" kafedrasında yerinə yetirilmiş, geniş müzakirə olunaraq əsas müdafiəyə tövsiyə edilmişdir. Tədqiqat işinin əsas müddəaları müəllifin nəşr olunmuş 9 elmi məqaləsində öz əksini tapmışdır. Müəllifin iki məqaləsi Web of Science bazasının Citation Index seriyasına daxil olan jurnalda (*International Journal of Review in Life Sciences (IJRLS)*) dərc edilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Tədqiqatın giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, onun metodoloji və nəzəri əsasları müəyyənləşdirilir, işin elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəaları və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və tədqiqatın quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın birinci fəsli **"Əcnəbilərin hüquqi vəziyyətini formalaşdıran normaların insan hüquqları sistemində yeri"** adlanır və üç paraqrafdan ibarətdir.

**"İran qanunvericiliyində əcnəbi anlayışı və onun hüquqi məzmunu"** adlanan birinci paraqrafda İran hüququnda "əcnəbi" anlayışından istifadə edilməsinin xüsusiyyətləri araşdırılır. Qeyd edilir ki, ərəb mənşəli söz olan "əcnəbi" termini tərcümədə başqa ölkənin vətəndaşı, təbəsi mənasını ifadə edir. Anlayışla bağlı hüquq ədəbiyyatında mövcud

olan yanaşmaları, o cümlədən beynəlxalq hüquqi sənədləri və müxtəlif dövlətlərin qanunvericiliyini təhlil edən müəllifin fikrincə, İran qanunvericiliyində "əcnəbi" anlayışı insan hüquqlarına universal (liberal) yanaşma ilə islam (dini) konsepsiyanın uzlaşdırılması müstəvisində müəyyən edilə bilər.

Belə ki, beynəlxalq hüquqi sənədlərdə və dövlətlərin qanunvericiliyində "əcnəbi" anlayışı geniş mənada şərti xarakter kəsb etməklə olduğu dövlətin vətəndaşlığına malik olmayan (apatridlər daxil olmaqla) şəxsləri, dar mənada isə olduğu dövlətin vətəndaşı olmayan, lakin digər dövlətin (və ya dövlətlərin) vətəndaşlığına malik olan şəxsləri ehtiva edir.

İslam dinində əcnəbilər haqqında anlam bir sıra fərqli və oxşar cəhətlərə malikdir. Oxşar cəhətləri ondan ibarətdir ki, İslam dinində əcnəbilər digər insanlar kimi bir sıra ümumtanınmış hüquqlara malikdirlər. Amma başlıca fərqli cəhət insanların dini baxımdan yerli və əcnəbiyə bölünməsidir. Bu da ondan irəli gəlir ki, İslam dinində insana başqa cür baxırlar. Yəni insanın müsəlmanlığı qəbul edib etməməsi onun əcnəbi və yerli olmasını şərtləndirir. Onda belə nəticə almaq olar ki, İslam dinində ölkələr, dövlətlərin coğrafi ərazisi deyil, məhz insanın İslam dininə mənsubluğu ön plana çəkilir.

İran qanunvericiliyinin əsaslandığı şəriət normaları baxımından bəşəriyyət iki ümumi hissəyə (müsəlman və qeyri-müsəlmanlara) bölünür. Müsəlmanlar isə İslam cəmiyyətinin fərdləridirlər və Quranın təbirincə ümmət adlandırılmışlar. Müsəlmanlar belə bir cəmiyyətdə iman, məqsəd, ideologiya, öhdəçilik və d. stimullar baxımından müştərəkdirlər və birbirinə qarşı birlik nümayiş etdirirlər. Bu birlik hissi İslamı tanınmış beynəlxalq sərhədlər çərçivəsindən çıxarır və əcnəbi termini bu baxımdan öz mənasını itirir.

Bütün bunlara əsasən deyə bilərik ki, İslam qayda-qanunları ilə idarə olunan İranda əcnəbi məfhumu daha çox təsnifatlandırmaya məruz qalıb. Birincisi, insanlar kişi və qadına bölünür. İslam dini və fiqhi (islam doktrinası) qaydalara əsasən ikinci bölgü insanların müsəlman və qeyri-müsəlmana ayrılmasıdır. Əcnəbilərin üçüncü bölgüsü din və məzhəbdir. Əcnəbilər əhli-kitab olub olmamaq baxımından iki yerə bölünürlər. Dördüncü meyar isə yaşama müddətidir. Bu meyara əsasən, əcnəbilər adi (qonaq, məskunlaşan) və qeyri-adi (siyasi məmurlar, qaçqınlar, köçkünlər, fərarilər, casuslar) hissələrə bölünürlər. Adi əcnəbilərin özləri daha kiçik tacirlər, tələbələr, zəvvarlar, turistlər, sənətkarlar və digər hissələrə bölünürlər. İslam ölkəsində yaşayan adi əcnəbilərin hüquqi vəziyyəti ümumi xarakter daşıyır.



Müəllifin fikrincə, əcnəbilərin bu cür təsnifatlaşdırılmasında məqsəd hüquqların məhdudlaşdırılması deyil, vətəndaşlıq institutundan asılı olmayaraq islam ümmətinə daha çox imtiyazın tanınması təşkil edir. Əgər hüquqi kateqoriya olaraq "əcnəbi" termininin İran dövlətinə məxsus olmayan şəxsləri ifadə etməsini nəzərə alsaq, o halda İran qanunvericiliyinə görə yalnız müsəlman olan və müsəlman olmayan əcnəbiləri fərqləndirmək olar. Fərq isə yalnız onlara tətbiq olunan hüquqi rejimdə ifadə oluna bilər.

İkinci paraqraf **"Əcnəbilərin hüquqi vəziyyətinə aid beynəlxalq hüquq normalarının İran hüquq sistemində yeri"** adlanır. Bu paraqrada müəllif İranda əcnəbilərin hüquqi vəziyyətini müəyyən edən beynəlxalq və milli hüquq normalarının sistemini, eləcə də beynəlxalq hüquq normalarının İranın hüquq sistemində implementasiyası xüsusiyyətlərini araşdırır. Bu məqsədlə müəllif, hüquq ədəbiyyatındakı nəzəri yanaşmalarla yanaşı, mövcud olan beynəlxalq hüquqi sənədləri (ilk növbədə İranın iştirak etdiyi) və İranın müvafiq normativ aktlarını müqayisəli təhlil edir.

Müəllifin fikrincə, İran insan hüquqları sferasında mövcud olan bir çox beynəlxalq müqavilələrdə iştirak etsə də, bu istiqamətdə beynəlxalq hüquq normaları və İran qanunvericiliyi eyni məqsədə xidmət etsə də, əcnəbilərin hüquqi vəziyyəti ilə bağlı beynəlxalq hüquq normalarının İranın hüquq sistemində implementasiyası, islam hüquq düşüncəsindən irəli gələn tələblər nəzərə alınmadan qeyri-mümkün görsənir. Bu baxımdan islam hüquq düşüncəsi və bundan irəli gələn yerli ənənələr milli qanunvericiliyin və onun beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasının özünəməxsus olmasını şərtləndirir.

Bu məqsədlə beynəlxalq hüquq normaları ilə İranın milli qanunvericiliyinin əsaslandığı şəriət normaları arasında müqayisəli təhlil aparan müəllifin fikirncə, bu normaların məqsədi eyni olsa da, həmin məqəsədə yanaşma tərzi fərqlidir. İlahi iradəyə söykənən və məzmununda dini-etik ünsürləri birləşdirən şəriət normaları İran hüquq sisteminin ümumi qaydasını (*ordre public*) təşkil edir. Belə ki, İran Konstitusiyasının 4-cü maddəsinə əsasən, İranın milli qanunvericiliyi şəriət normalarına əsaslanır və Konstitusiyanın başqa maddələrinə və digər normativ aktlara münasibətdə bu maddənin müddəası üstünlüyə malikdir.

Əcnəbilərin hüquqi vəziyyətinə aid İran qanunvericiliyinin beynəlxalq hüquq normalarına uyğunlaşdırılması Konstitusiya ilə müəyyən olunur. Təbii ki, beynəlxalq hüquq normalarının milli-hüquqi implementasiyasında Konstitusiyanın bu müddəası əsas götürülməlidir.

Müəllifin fikrincə, İran qanunvericiliyinin beynəlxalq hüquq normalarına uyğunlaşdırlması bir neçə formada həyata keçirilir. Birinci forma

birbaşa unifikasiya formasıdır. Bu formaya müvafiq olaraq İran insan hüquqları sahəsindəki universal və regional xarakterli beynəlxalq müqavilələri ratifikasiya etməklə ondan hüquqi mənbə kimi istifadə edir. Digər forma qeyri-birbaşa və ya "dolayısı" unifikasiya formasıdır. Bu formaya əsasən, İran dövləti beynəlxalq müqavilədə iştirak etmədən, onun müddəalarını resepsiya edir. İnsan hüquqlarına universal yanaşma ilə islam (dini) konsepsiyasının uzlaşdırılması müstəvisində təcrübədə bu formadan istifadə edilməsi məqbul sayılır. Belə ki, islama zidd olan konvensiyalar, bəyannamələr, beynəlxalq təşkilatların qərarları İranda hüquqi qüvvəyə malik deyil.

Bu istiqamətdə İran hüquq sistemi üçün əlverişli ola biləcək digər forma regional beynəlxalq təşkilatlar (məsələn, İslam Konfransı Təşkilatı) çərçivəsində əcnəbilərə aid beynəlxalq hüquq normalarının şəriət normalarının tələblərinə uyğunlaşdırılması, başqa sözlə, beynəlxalq hüquq normalarının "islamlaşdırılması" ola bilər. Buna nümunə qismində İnsan Hüquqları üzrə 1990-cı il Qahirə Bəyannaməsini göstərmək olar. İslam dövlətlərinin birləşdirən beynəlxalq təşkilat çərçivəsində həyata keçirilən bu formada normayaradıcılığı sırf islam beynəlxalq hüquq yaradıcılığı olmaqla, universal normayaradıcılığına paralel deyil, ona əlavə və ya onun davamı kimi çıxış edir.

Əcnəbilərin xarici dövlətlərlə hüquqi əlaqəyə malik olması və onların iştirak etdiyi münasibətlərin beynəlxalq xarakterli olması, nəticə olaraq hüquqi vəziyyətin tənzimlənməsində yalnız daxili qanunvericiliyin kifayət etmədiyini, paralel olaraq beynəlxalq müqavilələrdən də mənbə qismində istifadə olunmasını şərtləndirir. Bu baxımdan başda Konstitusiya olmaqla İran qanunvericiliyi əcnəbilərin hüquqi vəziyyətinin müəyyən edilməsinin hüquqi əsasını daxili qanunvericiliklə yanaşı, dövlətin qoşulduğu beynəlxalq müqavilələrin də təşkil etməsini qəbul edir. İran Konstitusiyasının 77-ci maddəsinə görə parlament tərəfindən ratifikasiya edilmiş beynəlxalq müqavilələr İran üçün hüquqi əhəmiyyət kəsb edir.

Milli hüquq sistemində qanunlarla eyni səviyyəli hüquqi qüvvəyə malik olan beynəlxalq müqavilələrin (Mülki Məcəllə, m.9) milli qanunvericilik aktları ilə qarşılıqlı əlaqəsi və müəyyən hallarda ziddiyyətin yaranması qaçılmazdır. Bununla bağlı qanunvericiliyi təhlil edən müəllifin fikrincə, ziddiyətin yaranması halında beynəlxalq müqavilə normalarına üstünlük verilməlidir. Əcnəbilərin iştirak etdiyi beynəlxalq xarakterli münasibətlərin tənzimlənməsində isə ziddiyyətin olmasından asılı olmayaraq beynəlxalq müqaviləyə üstünlük verilməlidir. Bu isə yalnız ümumi qaydanın (*ordre public*) pozulmaması şərti ilə ola bilər. Konstitusiyanın 72-ci maddəsinə



müvafiq olaraq İranın qoşulduğu beynəlxalq müqavilələr Konstitusiyaya və şəriət normalarına zidd ola bilməz. Yəni beynəlxalq müqaviləyə üstünlük verilməsi ümumi qaydanın qorunması tələbindən irəli gələn hallara şamil edilmir. Belə ki, İran Mülki Məcəlləsinin 8-ci maddəsinə qeyd edildiyi kimi əcnəbinin malik olduğu hüquq beynəlxalq müqaviləyə əsaslansa belə, onun məzmunu və həyata keçirilməsi İran qanunvericiliyi ilə müəyyən ediləcəkdir.

**"Əcnəbilərin hüquqi rejimi və İran qanunvericiliyi"** adlanan üçüncü paraqraf özü də iki yarımparaqrafdan ibarətdir.

**Birinci yarımparaqrafda** əcnəbilərin hüquqi vəziyyətini tənzim edən prinsiplərdən bəhs olunur. Müəllif əcnəbilərin hüquqi vəziyyətini tənzim edən prinsiplərdən əcnəbiyə onun olduğu dövlətin yurisdiksiyasının şamil edilməsi prinsipi; ayrı-seçkiliyin yolverilməzliyi prinsipi; olduğu dövlətə münasibətdə əcnəbilərin öhdəliklərinin mövcudluğu prinsipi; əcnəbilərin vətəndaşı olduğu dövlət tərəfindən müdafiə edilməsi prinsipi; olduğu dövlət tərəfindən əcnəbilərin hüquqlarının və maraqlarının müdafiə edilməsi prinsipi qeyd edilə bilər. Lakin bu siyahıya əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin kollektiv çıxarılmasının qarşısının alınması; əcnəbilərin hüquq və azadlıqlarının mütləqliliyi, məhdudlaşdırmaların isə istisnalığı; bərabərlik və ayrı-seçkilik etməmək və s. də aid edilməlidir. İfadə etdiyimiz prinsiplər əsasən ümumi xarakterli prinsiplərdir və əcnəbilərlə bağlı bu və ya digər məsələlərin tənzimlənməsində ümumtanınmış insan hüquqlarından meydana gəlir və əcnəbilər vətəndaşlarla hüquqi baxımdan bərabərləşdirilir. İran İslam Respublikasının Konstitusiyasının III-cü fəsilində insanların azadlıqlarına və hüquqlarına ayrıca diqqət olunmuş, ümumtanınmış hüquqlar rəsmi olaraq ifadə edilmişdir.

Müəllifin fikrincə, qeyd olunan prinsiplər xüsusi xarakterli olmaqla beynəlxalq hüququn əsas prinsiplərinin məzmunundan irəli gəlir. Belə ki, sadalanan prinsiplər əcnəbilərlə davranışın minimum standartlarını ifadə etməklə əsas prinsip olan insan hüquqlarına hörmət prinsipinin məzmununa daxildir. Əcnəbilərin hüquqi rejiminin müəyyən edilməsinin əsasını təşkil edən qarşılılıq prinsipi, dövlətlərin hüquq bərabərliyi, beynəlxalq əməkdaşlıq və öhdəliklərin vicdanla yerinə yetirilməsi kimi əsas prinsiplərin ünsürlərini özündə birləşdirir. Qeyd olunur ki, bu prinsip İranın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilməklə və müstəqil hüquqi əsas kimi tətbiq edilir. Sonuncu halda İran dövləti beynəlxalq müqavilə bağlamadığı dövlətlərin vətəndaşlarına münasibətdə müvafiq hüquqi rejimin tətbiq olunmasını həyata keçirir. Qarşılılığın prinsip olaraq çıxış etməsi, müəllifin fikrincə, onun şərt kimi tətbiq edilməsini istisna edir.

Əcnəbilərin iştirak etdiyi münasibətlərin beynəlxalq xarakterli olması və öz vətəndaşlarının digər dövlətlərin ərazisində hüquqlarının müdafiə etməsi öhdəliyi, qarşılılıq prinsipindən istifadə olunmasını zəruri edir.

**İkinci yarımparaqrafda** İranda əcnəbilərə tətbiq olunan hüquqi rejimlərdən bəhs olunur. Bununla bağlı milli qanunvericiliyi təhlil edən müəllifə görə, əcnəbilərə münasibətdə üç hüquqi rejimdən istifadə olunur: a) milli rejim; b) daha əlverişli rejim; c) xüsusi rejim.

Milli qanunvericiliyə müvafiq olaraq tətbiq olunan əsas rejim milli rejimdir. Hərçənd beynəlxalq müqaviləylə və qanunvericiliklə bu və ya digər sahələrdə, məsələn, investisiyaların qoruması və ya müəyyən qrup, məsələn, müsəlman əcnəbilərə münasibətdə daha əlverişli rejim və ya xüsusi rejim tətbiq edilə bilər.

Formal qarşılılığa əsaslanan milli rejimdə əcnəbilərin hüquqi vəziyyəti İran vətəndaşlarının hüquqi vəziyyətinə bərabərləşdirilir (Mülki Məcəllə, m.961). Bu rejimin tətbiqi aşağıdakı xüsusiyyətlərlə şərtlənir: 1) hüquqi vəziyyətin bərabərləşdirilməsi bir qayda olaraq xüsusi münasibətlər sferasına aiddir; 2) beynəlxalq hüquq normalarına və bu normalardan irəli gələn öhdəliklərinə müvafiq olaraq İran dövləti ümumi qaydasını qorumaq məqsədiylə əcnəbilərə münasibətdə müəyyən məhdudiyyətlər tətbiq edə bilər.

Müəllifə görə, məhdudlaşdırmaların tətbiqi aşağıdakı şərtlər çərçivəsində olmalıdır: birincisi, bu əcnəbilərin malik olduqları bütün hüquqlara şamil edilməməlidir; ikincisi, məhdudiyyətlər bütün əcnəbilərə bərabər həddə və diskriminasiyaya yol verməməklə tətbiq edilməlidir; üçüncüsü, məhdudlaşdırma müasir beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına zidd olmamaqla həyata keçirilməlidir.

Əcnəbilərə aid hər hansı bir ölkənin hüquq sistemi ilə İran hüquq sisteminə oxşar hesab olunarsa, həmin halda əcnəbinin İranda öz hüquqlarından istifadəsi heç bir məhdudiyyət olmadan həyata keçirilə bilər. Lakin bu qanunvericilikdə imperativ xarakterli qadağanın olması halında istisna edilir. Məsələn, İran Konstitusiyasının 81-ci maddəsinə müvafiq olaraq ticarət, sənaye, kənd təsərrüfatı, dağ-mədən sənayesi və xidmətlər sferasında firma və müəssisə yaratmaq üçün əcnəbilərə konsessiya verilməsi qəti qadağandır. Bəzi məhdudiyyətlər (məsələn, sələmin qadağan edilməsi) hamıya aiddirsə, digər məhdudiyyətlər yalnız əcnəbilər üçün nəzərdə tutulur. Bu mənada "İran cəmiyyətinə məxsus hüquq" terminindən istifadə edilir.

Beləliklə, İran qanunvericiliyi əcnəbilər üçün məhdudlaşdırmanı dövlətlərin ümumi qəbul edilmiş təcrübəsinə uyğun olaraq həyata keçirir.



Bununla bərabər məhdudiyyətlərin istisnası üçün minimum insan hüquqlarının dairəsi müəyyən edilib ki, bu da beynəlxalq hüquqdan da bəhrələnir. Məhdudiyyətlərin aradan qaldırılma vasitəsi kimi daxili qanunvericilik və beynəlxalq müqavilə əsası müəyyən edilib.

Dissertasiyanın ikinci fəsli **"İranda əcnəbilərin xüsusi hüquq münasibətlərində iştirakının xüsusiyyətləri və beynəlxalq hüquq normaları"** adlanır və dörd paraqrafdan ibarətdir.

**"Əcnəbilərin iştirakı ilə yaranan ailə-nikah və vərəsəlik münasibətlərinin hüquqi tənzimlənməsi"** adlanan birinci paraqrafda əcnəbilərin iştirak etdiyi ailə-nikah və vərəsəlik hüquq münasibətlərinin hüquqi tənzimlənməsinin xüsusiyyətlərindən bəhs edilir. Müəllifin fikrincə, daha çox yerli adət-ənənələrin təsiri altında olan bu xüsusi münasibətlər sferasında əcnəbilərin iştirakı, müvafiq olaraq həmin münasibətlərlə bağlı olan milli hüquq sistemləri arasında kolliziyaların baş verməsinə şərait yaradır. Ümumiləşdirilmiş maddi hüquq normalarının olmaması və ya dar çırçivədə olması səbəbindən baş verən kolliziyaların həlli kolliziya normaları vasitəsilə həyata keçirilir. Qanunvericilikdə (Mülki Məcəllə, m.7) vətəndaşlıq qanunu (*lex patriae*) kolliziya prinsipindən istifadə olunması, nəticə olaraq İran qanunvericiliyi ilə yanaşı, əcnəbinin mənsub olduğu xarici dövlətin qanunvericiliyinin də tətbiqini şərtləndirir. Mülki Məcəllənin 961-ci maddəsinin ikinci bəndi əcnəbi vətəndaşların şəxsi vəziyyətini nəzərə alaraq onların vətəndaşları olduqları dövlətin hüquqlarını tanıyır.

Təbii ki, Fransız Mülki Məcəlləsinin modelindən istifadə edilsə də, şəriət normalarına əsaslanan İran Mülki Məcəlləsinin ailə-nikah və vərəsəliklə bağlı müddəaları özünəməxsus olmaqla kolliziyaların yaranması üçün münbit şərait yaradır. Məsələn, müsəlman qadının müsəlman olmayan əcnəbi ilə evlənməsinin qadağan edilməsi. İran qanunvericiliyi ailəyə xüsusi önəm verdiyindən və həmçinin İslam dininin ali qanunlarına əsaslanaraq əcnəbilərlə ailə qurmaq məsələsinə müəyyən məhdudiyyətlər qoyur.1931-cu il tarixli *Ailə və nikah Qanununda* qeyd edilir ki, "heç bir qanun pozuntusu olmadığı hallarda belə İranlı qadının əcnəbi vətəndaşla ailə qurması xüsusi icazəyə bağlıdır" (m.17). Mülki Məcəllənin 1061-ci maddəsinə əsasən, bəzi dövlət işçiləri, rəsmi iş adamları və dövlət təhsili alan tələbələrin əcnəbi qadınlarla ailə qurmasına xüsusi qaydada icazə verilə bilər.

Digər tərəfdən, İran qanunvericiliyi islam hüququna uyğun olaraq ər-arvad münasibətlərində kişinin hüququnu qəbul edir. Mülki Məcəllənin 963-cü maddəsində (eyni vətəndaşlığa malik olan ər-arvad arasında şəxsi və əmlak münasibətləri), 964-cü maddəsində (valideyn-övlad münasibətləri) bu prinsip ifadə edilib. İranda əcnəbilərin vərəsəlik hüquqları da onların

şəxsi vəziyyəti ilə bağlı məsələlərin tərkib hissəsi kimi diqqət mərkəzindədir. Mülki Məcəllənin 967-ci maddəsinə əsasən, xarici vətəndaşların İrandakı daşınar və ya daşınmaz mirası – varis, irsi payın miqdarı, ölənin vəsiyyəti vasitəsilə müəyyən edilmiş sahiblik hüququ ölənin tabe olduğu dövlətin qanunlarına əsasən müəyyən edilir. Bu qanundan belə nəticə çıxır ki, xarici vətəndaşın mirası məsələsində ölənin vətəndaşı olduğu dövlətin qanunları icra edilir. İran qanunları miras mövzusunda yalnız formal və qeydiyyata alma xarakterindən çıxış edir ki, bu ölmüş şəxslərin əmlakının tətbiq edilən hüquqları haqqında 1989-cu il Haaqa Konvensiyasına uyğundur. Bu halda miras əmlakının bölünməzliyi əsas götürülmüş olur.

İkinci paraqraf **"Əcnəbilərin əmlak hüquqları: xarici sərmayələr və milliləşdirmə"** adlanır. Burada qeyd edilir ki, əcnəbilərin əmlak hüquqları geniş məzmun kəsb edir. Onların əmlak hüquqları, bir tərəfdən sosial təminat məzmununa malikdirsə, digər tərəfdən, ticarət-təsərrüf istiqamətində təzahür edir. Sosial təminat istiqaməti beynəlxalq təsərrüfat (ticarət) dövriyyəsi ilə bağlı olmadığı üçün bu hüquqların rejimi də fərqli qaydada tənzimlənir. Məsələn, əcnəbinin şəxsi tələbatı ilə bağlı əmlakının hüquqi rejimi xarici sərmayələrin hüquqi rejimindən fərqli statusa malikdir.

Əcnəbiləri qəbul edən dövlət üçün qanunvericilik və beynəlxalq hüquqi baxımdan fərqləndirmə mühüm xüsusiyyətə malikdir. Birinci kateqoriya hüquqlar sosial təyinata malik olduğu üçün ümumi insan hüquqları normaları ilə tənzimləndiyi halda, xarici sərmayələrə münasibətdə qəbul edən dövlət əcnəbilər üçün daha əlverişli mexanizmlər yaratmağa çalışırlar. Bu da onunla bağlıdır ki, xarici sərmayələrin cəlb edilməsi istənilən dövlət üçün prioritet məsələ kimi qəbul edilir.

Bu kontekstdə İran iqtisadi əlaqələrin yaradılması və xarici sərmayəçilərlə iş qurulması baxımından kifayət qədər mütərəqqi qanun və qərarlar qəbul etmişdir. Bu əlaqələr bir tərəfdən İranın daxili qanunvericilik aktlarının qəbulu ilə bağlı olubsa, başqa bir tərəfdən onun xarici sərmayələrin təşviqi və müdafiəsi üzrə beynəlxalq müqavilələrə qoşulmasıdır. Daxili qanunvericilik aktlarından *Xarici sərmayələrin cəlb edilməsi və qorunması haqqında* 2002-ci il tarixli Qanun qeyd edilə bilər. Qanunvericiliyə əsasən, milliləşdirmə, müsadirə və məcburi satış nəticəsində mülkiyyətin alınmasının vurduğu ziyan dərhal, ədalətli şəkildə kompensasiya olunur. Beynəlxalq hüquqda bu məsələ bir qədər də konkret və ətraflı tənzimlənir. Xarici sərmayələrlə bağlı mühüm məsələlərdən biri sərmayələrin siyasi risklərdən sığortalanmasıdır. Bunun ən mükəmməl təminat sistemi isə Dünya Bank sistemində fəaliyyət göstərir. Bu təminata 1985-ci ildə Sərmayə təminatları üzrə çoxtərəfli Agentliyin təsis edilməsi ilə nail olunub.



Xarici sərmayədarlar üçün mühüm əhəmiyyətli digər problem qanunvericiliyin dəyişilməməsi və ya dəyişdirildiyi halda əcnəbi sərmayələrin vəziyyətinin pisləşdirilməməsidir. Qanunvericiliyə əsasən xarici kapitalın qorunması haqqında yeni şərtlər müəyyən olunduğu təqdirdə bu şərtlər müəyyən edilməmişdən əvvəl İrana daxil olan bütün müəssisə və şəxslərə də şamil olunur. Bu zaman qanunvericilik qaydasında əcnəbilərin hüquqi vəziyyəti pisləşdirilə bilməz.

İranda Xarici sərmayənin cəlb olunması və qorunması qanunu və onun icra nizamnaməsi qeyd-şərtsiz bütün xarici sərmayələrə şamil olunur. Bu sahədə xüsusi diqqət mərkəzində olan və dövlətin birbaşa nəzarəti altında olan məsələlər mövcuddur. Bunlardan ən mühümü qanunun 6-cı maddəsində öz əksini tapmış qarşılıqlı münasibətlərlə bağlı məsələlərdır. Əsasnamədə göstərilir ki, "Bu qanunun şərtləri yalnız İran vətəndaşları və müəssisələri üçün eyni qanuni şərtlərlə nəzərdə tutulduğu ölkələrin vətəndaşları və müəssisələrinə şamil edilir".

Xarici sərmayəçilərin hüquqlarının qorunması istiqamətində İranda UNSITRAL-ın nümunəvi qanunundan istifadə edilərək hazırlanmış 2007-ci ildə Beynəlxalq ticarət arbitrajı haqqında qanun qəbul olunub. İran *Xarici arbitraj qərarlarının tanınması və icrası haqqında* 1958-ci il Nyu-York müqaviləsinə 2001-ci ildə qoşulmuşdur. 2002-ci ildə İranın Ticarət, Sənaye və Mədən Palatası tərəfindən Tehranda İran arbitraj mərkəzi təsis olunmuşdur.

Beləliklə, İran qanunvericiliyi müəyyən istisnalarla əcnəbi sərmayədarlar üçün mümkün yüksək standartlara malikdir. İstisnaları sərmayələrin anlayışı ilə əlaqələndirmək lazımdır. Qanunvericiliyin məhdud tərəfi tərəfdar çıxılan beynəlxalq müqavilələrlə aradan qaldırıla bilər.

Üçüncü paraqraf **"Əcnəbilərin daşınmaz əmlak üzrə hüquqlarının məhdudlaşdırılması"** adlanır. Qeyd olunur ki, İran qanunvericiliyində əcnəbilər üçün daşınmaz əmlak kimi torpaqla əlaqəli münasibətlər xüsusi qaydada tənzimlənir. Əcnəbilərin torpağa mülkiyyətinin iki əsas forması: əkinə yararlı torpaqlar üzərindəki mülkiyyət hüququ; əkin altında olmayan torpaq üzərindəki mülkiyyət hüququ fərqləndirilir. Mülki Məcəllənin 987-ci maddəsinə 2-ci qeyddə deyilir: "Ərə getmə səbəbindən xarici vətəndaşlığı əldə edən İran qadınları torpaq mülkiyyəti üzərində sahiblik hüququna malik ola bilməzlər, əgər bu hal xaricinin iqtisadi hökmranlığı ilə nəticələnərsə". Bu müddəaya nəzər saldıqda məlum olur ki, əcnəbilər torpaq sahələri üzərində mülkiyyət hüququna malik deyil.

Əcnəbilərin əkin torpaqlarına sahib olmaqdan məhrum olunması qanunla müəyyənləşdirilmişdir. Əcnəbi vətəndaşların daşınmaz əmlak

üzərindəki hüquqları ilə bağlı 7 iyun 1931-ci il tarixli Qanununa əsasən, əcnəbilərin mülkiyyətində olan əkin torpaqları onlardan geri alınmalı və onlar əkin torpaqlarına sahib olmaqdan məhrum olunurlar. Əkin torpaqlarına əcnəbilərin mülkiyyət hüququ bir neçə formada: vərəsəlik qaydasında, bağışlama, borc və s. yarana bilər.

Bu qanun təsdiq edildiyi vaxta qədər İranda əkin torpaqları üzərində mülkiyyət hüququ əldə etmiş əcnəbilər bu imitiyazdan məhrum olundular. Qeyd olunan Qanun əcnəbilərin İranda mülkiyyətinin özgəninkiləşdirilməsi ilə bağlı tərtib edilmiş xüsusi qanunlardan biri olmaqla həm beynəlxalq təcrübəyə, həm də İranın müasir konstitusiya qanunu ilə də eyniyyət təşkil edir. Burada dəymiş olacaq ziyanın aradan qaldırılması, mülklərin qiymətlərinin mümkün qədər ədalətli şəkildə ödəniləcəyi də proqnozlaşdırılır. Əcnəbi şəxsin əmlak hüququ qiymətləndirilərkən azad bazar prinsipi əsas götürülür.

Əcnəbilərin daşınmaz əmlaka sahiblik hüquqlarının qorunmasında İran qanunvericiliyi səmərəli əlaqə prinsipindən çıxış edir. Xüsusilə, İranda daimi məskunlaşma haqqında sənədi olan əcnəbilər status baxımından yerli vətəndaşlara yaxınlaşdırılmaqdadır. Yeri gəlmişkən, İranda daşınmaz əmlaka sahiblik məsələsində əcnəbi vətəndaşlar üç qrupa bölünür: a) İranda daimi məskunlaşma haqqında sənədi olan əcnəbilər; b) İranda daimi məskunlaşma haqqında sənədi olmayan və yalnız müxtəlif illərdə müntəzəm şəkildə İrana mövsümi səfərlər edən əcnəbilər; c) İranda daimi məskunlaşma haqqında sənədi olmayan və müntəzəm şəkildə İrana mövsümi səfərlər etməyən əcnəbilər.

İran Konstitusiyasının 47-ci maddəsində mülkiyyət hüququna hörmətlə yanaşılır. Yeganə məhdudiyyət yalnız qeyri-qanuni sahiblik ilə bağlıdır. *Mülkiyyət haqqında* Qanunun 30-cu maddəsinə əsasən, əmlakı olan hər bir şəxs qanunda istisna olan bütün hallar istisna olmaqla öz torpağından istədiyi kimi istifadə edə bilər. Müəllifin fikrincə, istisnaların həlli ilə bağlı Avropa İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında 1950-ci il Konvensiyasının 1 saylı Protokolunun 1-ci maddəsinin mətnindən yararlanaraq həm konstitusiyada, həm də qanunlarda bir düzəlişin edilməsi zərurdir. Həmin maddəyə əsasən, hər bir fiziki və hüquqi şəxs öz mülkiyyətindən maneəsiz istifadə hüququna malikdir. Heç kəs, cəmiyyətin maraqları naminə, qanunla və beynəlxalq hüququn ümumi prinsipləri ilə nəzərdə tutulmuş şərtlər istisna olmaqla, öz mülkiyyətindən məhrum edilə bilməz.

Müəllifə görə, daşınmaz əmlakla aid məhdudiyyətlərlə bağlı İran qanunvericiliyinin mövqeyi beynəlxalq təcrübəyə uyğundur. Demək olar ki,



bütün ölkələrdə əcnəbilərin təsiretmə imkanlarının qarşısını almaq məqsədi ilə onların əkin torpaqları və bu kimi daşınmaz əmlak üzərindəki hüquqlarına məhdududiyyət qoyulur. Əcnəbilərin daşınmaz əmlaka sahiblik imkanlarına dövlət nəzarəti ölkənin təhlükəsizliyinin pozulma hallarının qarşısını alır. Bu fakt çox vacib və həyati bir məsələdir. Deməli, ümumi qaydanın (*ordre public*) qorunması tələbindən irəli gələn məhdudiyyətlərin tətbiqi mümkündür. Sadəcə, əcnəbilərin daşınmaz əmlakla bağlı qanuni yolla əldə etmiş olduqları hüquqların məhdudlaşdırılması, müvafiq olaraq kompensasiya edilməlidir. Bu beynəlxalq normalada təsbit olunan ədalətli kompensasiya prinsipinə də uyğundur.

**"Əcnəbilərin əmək hüquqları və sosial təminatı"** adlı dördüncü paraqrafda əcnəbilərin əmək hüquqları və sosial təminatı məsələləri araşdırılır. Qeyd olunur ki, əcnəbilərin sosial təminatı və əmək hüquqları ayrı-ayrı ölkələrdə fərqli qaydada tənzimləndiyi üçün bu sahədə də beynəlxalq müqavilə normaları xüsusi əhəmiyyət daşıyır. Bu məsələlərlə bağlı beynəlxalq hüquq normaları insan hüquqlarına aid ümumi xarakterki beynəlxalq aktlarda (1948-ci il Bəyannaməsi, 1966-cı il İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt və.s.), həm də xüsusi sazişlərlə müəyyən olunur. Təbii ki, xüsusi tənzimetməyə Beynəlxalq Əmək Təşkilatının qəbul etdiyi beynəlxalq aktlar (Minimal sosial təminat normaları haqqında 1952-ci il 102 saylı Konvensiya, Sosial siyasət normalarının əsas məqsədlərinə dair 1962-ci il 117 saylı Konvensiya, Sosial təminat sahəsində ölkə vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq bərabərliyi haqqında 1962-ci il 118 saylı Konvensiya və s.) mühüm əhəmiyyət kəsb edir.

Əcnəbilərin əmək hüquqları və sosial təminatı ilə bağlı İran qanunvericiliyi milli rejim prinsipinə əsaslanır. 1979-ci ildə qəbul olunmuş Sosial təminat Qanunun 5-ci maddəsinə əsasən, İranda işləyən əcnəbi vətəndaşlar bütün sosial təminat məzuniyyətlərinə malikdir və bu baxımdan onlarla İran vətəndaşları arasında fərq qoyulmur. Lakin qeyd olunan maddədə iki istisna nəzərdə tutulur: 1) əgər əcnəbi vətəndaş İranda işlədiyi müddətdə öz yaşadığı dövlətin səlahiyyətli qurumlarından şəhadətnaməyə uyğun olaraq öz ölkəsi və ya başqa ölkədə sığorta olunarsa, və əgər əcnəbi vətəndaşın (işçisinin) aid olduğu dövlətlə İran arasında ikili və ya çoxtərəfli sosial təminat razılaşması imzalanarsa, bu halda razılaşmaya əməl oluncaq; 2) təqaüd, işdən qalma və ölümlə bağlı alınan təminatlar istisnadır.

Sosial təminata bağlı İran qanunvericiliyinin təhlil edən müəllifin fikrincə, beynəlxalq öhdəliklərə uyğun olaraq iş üçün əcnəbilərin təhsil sənədlərinin qiymətləndirilməsi və İranda ali təhsillərini davam etdirmələri

haqqında qanunlarda xüsusi yüngülləşdirici müddəalar vardır ki, bəzi məsələlərdə belə yüngülləşdirici müddəalardan istifadə olunaraq güzəştlərin tətbiq olunması, daxili vətəndaşlara edilən güzəştlərdən daha çoxdur. Bu sistemdə ən əhəmiyyətli məsələ budur ki, İran vətəndaşları bərabər şəraitdə qeyd olunmuş üstünlüklərə malik deyillər. Başqa sözlə, İran əcnəbilər üçün daha artıq hüquqlar müəyyən edir.

Ümumi halda əmək hüquqları sahəsində əcnəbilər də İran vətəndaşları ilə bərabər hüquqlara malikdirlər. Əmək fəaliyyəti vətəndaşlıqla şərtləndirilən sahələrdə əcnəbilər işləmək hüququna malik deyillər və onların belə işlərdə işləməsi qeyri mümkündür. Əcnəbilərin bu qaydada hüquqdan məhrum olması beynəlxalq hüquqa uyğundur.

Qeyd etmək lazımdır ki, sosial təminat məsələsində İran qanunvericiliyi beynəlxalq standartlara uyğun olduğu halda məşğulluq sferası daha çox məhdudlaşdırmaya məruz qalıb (İran Konstitusiyası, m.81). Müasir dövrdə dövlətlər universal ticarət təşkilatlarına və bu sahədə qəbul edilmiş beynəlxalq müqavilələrə qoşulduqca əcnəbilər üçün əmək fəaliyyəti sferalarını da genişləndirməkdədirlər. Dünya Ticarət Təşkilatının sazişlərindən Xidmətlərlə ticarət üzrə baş Sazişə (GATS) qoşulan dövlətlər İran qanunvericiliyi ilə məhdudlaşdırılan bir çox fəaliyyət sferalarında əcnəbilər üçün məhdud formada olsa da, milli rejim prinsipini tətbiq etmək imkanını qəbul edirlər. Əcnəbilərin məşğulluğu ilə bağlı İran qanunvericiliyi kvotalandırma prinsipindən çıxış edir. Lakin zərurət duyulan peşələr üzrə istisnalar mövcuddur.

Müəllifin fikrincə, İran qanunvericiliyi əmək hüquqlarına münasibətdə əcnəbiləri sosial-hüquqi əlaqədən, davamlı yaşayış şərtindən asılı olaraq ölkənin vətəndaşlarına yaxınlaşdırmaq istiqamətinə malikdir və bu sahədə əcnəbilərin təsnifatı müsbət istiqamət kəsb edir. Xüsusən də, islam ölkələrinə mənsub mühacirlər İran vətəndaşlarına bərabərləşdirilir. Bu hal onu göstərir ki, İran vətəndaşlığı üçün islam inancı xüsusi əhəmiyyət daşıyır. Bununla bərabər daxili qanunvericilikdə sosial təminat ümumi hüquqlar kimi qorunursa, əmək hüquqlarına münasibətdə istisnalar mövcuddur. Əmək fəaliyyəti vətəndaşlıqla, islam dininə mənsubiyyətlə şərtləndikdə əcnəbilər bu hüquqdan istifadə edə bilməzlər ki, bu da beynəlxalq təcrübəyə uyğun hesab edilməlidir.

**"İran qanunvericiliyində və beynəlxalq hüquq normalarında əcnəbilərin hüquqi vəziyyətinin prosessual-hüquqi təminatının xüsusiyyətləri"** adlanan üçüncü fəsil iki paraqrafdan ibarətdir.

**"İran qanunvericiliyində və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə əcnəbilərin hüquqlarının prosessual-hüquqi təminatı"** adlanan



birinci paraqraf əcnəbilərin malik olduğu hüquqların prosessual təminatı məsələlərinin təhlilinə həsr edilib. Qeyd edilir ki, İran Konstitusiyası insan hüquq və azadlıqlarının tanınması və qorunması sahəsində ümumtanınmış beynəlxalq-hüquqi standartlardan heç də imtina etməmiş, əksinə bu dəyərlərə, hətta əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının qorunması və müdafiəsi də daxil olmaqla konstitusion-hüquqi mənada xüsusi önəm verir.

Konstitusiyada təsbit olunmuş prinsiplərin dairəsinə: hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi prinsipi, qanunçuluq prinsipi, təqsirsizlik prezumpsiyası prinsipi, qanun geriyə tətbiqinin yolverilməməsi prinsipi, humanizm və sair prinsiplər, Cinayət Məcəlləsindən bəhrələnən prinsiplərə: cinayət qanununun geriyə tətbiqinin yolverilməməsi prinsipi, qanunçuluq prinsipi, cinayət məsuliyyətinin labüdlüyü və sair prinsiplər; dini doktrinadan yaranan və ondan bəhərlənən prinsiplərə isə əsas ədalətlilik prinsipi aid edilir.

İranın Mülki-Prosessual Məcəlləsində maddi hüquq normalarının müdafiəsi və həyata keçirilməsi üçün əcnəbilərin prosessual hüquqi vəziyyəti nəzərdə tutulmuşdur. İranda əcnəbilərin iddiaçı və ya cavabdeh kimi istənilən ədalət məhkəmə orqanına müraciət hüququ tanınır. Əcnəbilər də İran vətəndaşları kimi məhkəmə orqanları qarşısında qarşılıqlı iddia hüququna malikdirlər və bu hüquqa müvafiq olaraq, onlar başqaları tərəfindən vurulmuş maddi və mənəvi zərin ödənilməsini tələb etmək, onlara qarşı qaldırılan əsaslı və əsassız iddia və ittihamlardan müdafiə olunmaq hüququna malikdirlər.

İranın qüvvədə olan Cinayət Məcəlləsində qanunda cinayət kimi nəzərdə tutulmuş əməlin törədilməsinə münasibətdə obyektiv ərazi və subyektiv ərazi yirisdiksiyası, o cümlədən personal (aktiv vətəndaşlıq və passiv vətəndaşlıq), ərazi və ərazidənkənarlıq yurisdiksiyası işə düşür.

İranın cinayət qanunu cinayət yurisdiksiyasının ərazi və milli qanun prinsiplərinə (8-ci maddədə nəzərdə tutulan istisna nəzərə alınmamaqla) daha çox üstünlük verir. Lakin universal yurisdiksiya prinsipinin beynəlxalq cinayətlərə daha çox şamil olunması (məsələn, genosid, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri) elmi ədəbiyyatlarda və araşdırmalarda geniş müdafiə edilir.

İranın Cinayət Məcəlləsində ağır cinayətləri törətməkdə ittiham olunan şəxsləri təqib etmək və cəzalandırmaqdan ötrü universal yurisdiksiyanın *unilateral* – yəni birtərəfli qaydada tətbiqi daha çox nəzərə çarpır. Bu qaydaya görə, dövlət cinayət siyasəti sferasında başqa dövlətlərin və beynəlxalq təşkilatların köməyindən istifadə etmək istəmir və ya bunu heç

arzulamır da. Bu bir danılmaz faktdır ki, ittiham olunan şəxsin ədalət mühakiməsi qarşısında fiziki cəhətdən dayanması üçün cinayət-hüquqi məsələlər üzrə beynəlxalq əməkdaşlıq zəruridir. İkincisi, İranın Cinayət Məcəlləsində universal yurisdiksiyanın təsir sferasına aid olan cinayətlərin dairəsi həm beynəlxalq hüquq, həm də xarici dövlətlərin cinayət qanunvericiliyində nəzərdə tutulmuş cinayətlərlə uyğunluq təşkil etmir.

İranın digər dövlətlərlə cinayətkarlıqla beynəlxalq mübarizə sahəsindəki müqavilə təcrübəsinə nəzər yetirsək, şahid olarıq ki, bu dövlət əsasən məhkum edilmiş şəxslərin cəza çəkmək üçün verilməsi kimi praktikaya sadiqlik nümayiş etdirir. Belə bir fərqli yanaşma son anda İranın başqa dövlətlərlə birgə cinayətkarlıqla səmərəli mabarizə aparmasında müəyyən əngəlliklər doğurur, «ikili kriminallıq» prinsipinin tətbiqini çətinləşdirir. Müəllif hesab edir ki, insan hüquqlarının təminatı baxımından İranın qüvvədə olan Cinayət Məcəlləsinin qeyd olunan göstərişi müasir dövrün reallıqlarına uyğunlaşdırılmalıdır.

İranın Həbsxanalar Məcəlləsinin 194-ci maddəsinin tələbinə görə, əcnəbi məhbusların həbsxana şəraitindəki istənilən görüşləri həbsxana rəisinin otağında və rəsmi təyin edilmiş tərcüməçinin iştirakı ilə olmalıdır. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 26-cı maddəsində qeyd edilir ki, bütün insanlar qanun qarşısında bərabərdir və heç bir ayrı-seçkilik olmadan müdafiə olunmaq hüququna malikdirlər. Lakin siyasi və konsulluq nümayəndələrinin öz məhbus vətəndaşları ilə görüşünün zindan-həbsxana rəisinin otağında keçirilməsi, zindan-həbsxana gözətçisinin iştirakının vacibliyi, aparılan söhbətin və danışığın uca səslə aparılması tələbi təməl insan hüquqlarına və azadlıqlarına hörmət və riayət edilməsi baxımından başa düşülən deyil. Müəllifin fikrincə, bu qaydaya dəyişiklik edilməsi məqsədəmüvafiqdir.

Qanunvericiliyi təhlil edən müəllifə görə, İranın Konstitusiyasında, sahəvi qanunvericilik aktlarında, xüsusən, Cinayət Məcəlləsində, Cinayət Prosessual Məcəlləsində, Mülki Prosessual Məcəlləsində və digər qanunvericilik aktlarında İslamın fəlsəfi-hüquqi əsası olan Müqəddəs Qurani-Kərimin, islam normalarının və habelə İranın tərəfdar çıxdığı beynəlxalq müqavilələrinin tələblərinə müvafiq olaraq əcnəbilər üçün bir sıra maddi və prosessual təminatlar nəzərdə tutulmuşdur. Müəyyən ziddiyyətli məqamlar istisna olmaqla (məsələn, əcnəbi məhbusun öz dövlətinin səlahiyyətli nümayəndələri ilə bütün görüşlərinin xüsusi nəzarət altında keçirilməsi, tərcüməçinin iştirakının vacibliyi, görüş zamanı ucadan danışmaq, tətbiq olunan cinayət cəzasının beynəlxalq standartlara uyğunsuzluğu, bərabərlik müstəvisində kişi və qadın arasında müəyyən fərq qoyulması, və s.) İranda



əcnəbilərə münasibətdə tətbiq olunan maddi və prosessual təminatlar, İran vətəndaşlarına şamil olunan maddi və prosessual təminatlarla uyğunluq təşkil edir. Belə ki, onlara bir sıra hallarda milli rejim, bir sıra hallarda isə qarşılıqlılıq prinsipi tətbiq edilir.

İkinci paraqraf "**İran qanunvericiliyində əcnəbilərin hüquq və azadlıqlarının məhkəmə müdafiəsi və beynəlxalq hüquq normaları**" adlanır. Burada qeyd olunur ki, İranda islama əsaslanan məhkəmə hakimiyyəti mövcuddur. Müsəlman məhkəmə sistemində yalnız müsəlmanların və ya belə məhkəməyə razı olan şəxslərin işlərinə baxılır, xalq iclasçıları, assizlər və ya andlılar olmur, proses həm mülki hüquqda, həm də cinayət hüququnda səciyyəvi məsuliyyət formaları ilə şəriət ehkamları əsasında həyata keçirilir.

Konstitusiyaya əsasən məhkəmə hakimiyyəti Ali məhkəmə, Ali Məhkəmə Şurası və aşağı məhkəmələrdən ibarətdir. Ədalət mühakiməsi cinayət və mülki işlərə baxan ümumi səlahiyyətli məhkəmələr və xüsusi məhkəmələr (inqilab məhkəmələri, hərbi məhkəmələr və ruhanilərin işləri üzrə məhkəmələr) vasitəsi ilə reallaşdırılır. Bütün məhkəmələrin fəaliyyətinə Ali Məhkəmə (Divan-e Ali-ye Keşvər) nəzarət edir.

Baş hakim və baş prokuror hökmən şiə məzhəbli dindar şəxs olmalıdır. Konstitusiyanın 167-ci maddəsinə görə, hakim şəriətlə bağlı hökmlər çıxara bilər. İranda məhkəmə sisteminə üç əsas qurum daxildir: İnzibati ədalət məhkəməsi, qanunların icrasına nəzarət edən Baş inspektorluq və ədliyyə polisi. Bu məhkəmə sistemi əcnəbilər də daxil olmaqla insan hüquqlarının mərhələli, çoxpilləli müdafiəsi sistemi üçün əhəmiyyət daşıyır.

İran Konstitusiyasının 156-cı maddəsində vurğulanır ki, məhkəmə hakimiyyəti müstəqil hakimiyyət olub, insanların fərdi və ictimai maraqları müdafiə edir və məhkəmələr ədalətə riayət edilməsinə görə məsuliyyət daşıyırlar.

İran məhkəmələri əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin prosessual hüquqlarının həyata keçirilməsi zamanı bu sahədə mövcud olan beynəlxalq praktikanı (məsələn, qarşılıqlılıq prinsipinin nəzərə alınması, ikitərəfli hüquqi yardım haqqında müqavilələrə müraciət və s.), habelə onların iştirakı ilə olan icraatın xüsusiyyətlərini, aidiyyət məsələsini, hüquqi yardım və digər məsələləri nəzərə alır.

Məhkəmə prosesi ilə bağlı olan və beynəlxalq hüquqda (məhkəmə qarşısında bütün insanların bərabər hüquqa sahib olması ideyası üzrə Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14-cü maddəsi) da öz ifadəsini tapan ədalətli mühakimə hüququ bəzi fərqlərlə müxtəsər şəkildə

İran İslam Respublikasının Konstitusiyasında da tanınmışdır. Bu məsələ ilə bağlı bəzi şərtlər Konstitusiyanın 19, 20, 34, 35, 36, 37, 38 və 156-cı maddələrində öz əksini tapmışdır.

Müəllifə görə, insan hüquqlarının və bu hüquqların tərkib hissəsi olan əcnəbilərin hüquqlarının təmini üçün ən əlverişli müdafiə mexanizmi və vasitəsi - məhkəmə sistemidir. İranda bu sistem daxili qanunvericilik prinsiplərinin, habelə Qurani-Kərim və islam normaları tələblərinin pozulmaması şərtləri daxilində İranın tərəfdarı olduğu beynəlxalq müqavilələrdən irəli gələn öhdəlikləri qəbul edir və onların tətbiqinə təminat verir. Bu da bir faktdır ki, ədalət mühakiməsinin necə təsis edilməsinin birmənalı sxemi yoxdur və ola da bilməz. Hər şey ölkənin konkret şəraitindən asılıdır. Ədalət mühakiməsinin formalaşmasına müvafiq dövlətin konkret coğrafi məkanda yerləşməsi, əhalinin hüquq düşüncəsinin səviyyəsi, dövlətin hansı hüquq sistemləri ailəsinə daxil olması, dini-əxlaqi ənənələr, məhkəmələrin nüfuzu və s. meyarlar təsir göstərir. Təbii ki, bu sadalanan meyarlar İran məhkəmə sistemi üçün də xarakterik olan hallardır.

Dissertasiyanın **nəticə hissəsində** işin yekunları göstərilir və işin əsas müddəalarının təcrübi cəhətdən həyata keçirilməsi ilə bağlı konkret təkliflər irəli sürülür.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı nəşr olunmuş məqalələrində əks olunmuşdur:**


1. İnsan hüququlari və əcnəbilərin bir kateqoriyasi kimi qaçqinlar problemi // Baki Dövlət Universiteti, Beynəlxalq münasibətlər va beynəlxalq hüquq fakültəsi, Elmi–praktik konfransın materialları. 06-07 may 2010-cu il, s.104-109

2. Əcnəbilərin hüquq və azadlıqlarının müdafiəsinin məhkəmə mexanizmi // Beynəlxalq hüquq və inteqrasiya problemləri, elmi-analitik və praktik jurnal, № 03 (27) 2011, s.86-90

3. Development Tendencies of Legislation of Legal Status of Foreigners in the Islamic Republic of Iran // Вестник хабаршы, (серия международные отношения и право, İnternational relation and international law series), Алматы, Казак университети, 2012, № 2 (58), s. 80-83

4. The features of implementation of International Standards on the legislative position of foreigners in the legal system of Iranian Republic // Azərbaycan universiteti. 9 iyun 2012-ci il. Elm və təhsil, beynəlxalq elmi konfrans, Bakı, 2012, s. 238-242





5. İran qanunvericiliyində və beynəlxalq müqavilələrdə əcnəbilərin hüquqi vəziyyətinin maddi və prosessual-hüquqi aspektləri // Nəqliyyat hüququ, Bakı, 2013, № 2, s.155-163

6. Rights of foreign citizens in the family-marrige relations // International Journal of review in Life Sciences (c) 2013. Available online at www.irjabs.com

7. Əcnəbilərin hüquqi vəziyyətinin tənzimlənməsi üzrə rejimlər və İran qanunvericiliyi // Dirçəliş-XXI əsr, № 180, 2013, s.106-112

8. Əcnəbilərin hüquqi vəziyyətini tənzim edən ümumi prinsiplər və İran qanunvericiliyi // Nəqliyyat hüququ, Bakı, 2014, № 4, s.162-174

9. Legal status of foreign nationals in Iran and international law // International Journal of review in Life Sciences ISSN 2231-2935 5(8), 2015 www.ijrls. Pharmascope.org. p. 1348-1353

## РЕЗЮМЕ

Диссертационная работа на тему: «Правовой статус иностранцев в Исламской Республике Иран и международное право», представленная на соискание ученой степени доктора философии по праву по специальности: 5603.01-«Международное право; права человека» является актуальным, самостоятельным и завершенным научным исследованием.

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка литературы. Во введении обоснована актуальность темы исследования, определены цель и основные задачи работы, ее методологическая основа, теоретическая и практическая значимость, показана степень разработанности проблемы, изложена научная новизна диссертации, сформулированы выносимые на защиту основные положения, показаны результаты ее научной апробации.

Глава первая – «Место норм, формирующих правовой статус иностранцев в системе прав человека» состоит из трех параграфов. В ней рассматриваются вопросы содержания дефиниции «иностранцы», основные стадии формирования правового статуса иностранцев в Иране, исследуются международно-правовые нормы относительно статуса иностранцев, а также применения таких норм в законодательстве Ирана, и, наряду с этим, анализируются общие принципы и режимы, регулирующие правовое положение иностранцев по законодательству Ирана.

Глава вторая - «Особенности участия иностранцев в частноправовых отношениях в Иране и нормы международного права», состоит из четырех параграфов. В ней исследуются вопросы социального обеспечения и трудовых прав иностранцев, их права в брачно-семейных отношениях, имущественные права иностранцев в области иностранных инвестиций, а также рассматриваются правовые основания ограничения прав иностранцев на недвижимое имущество в Иране.

Третья глава - «Особенности процессуально-правового обеспечения статуса иностранцев в законодательстве Исламской Республики Иран и в международных правовых нормах» посвящена анализу соотношения обеспечения судебной защиты прав и свобод иностранцев по законодательству Ирана и международно-правовых норм.

В заключении научной работы подводятся ее итоги и выдвигаются конкретные предложения, связанные с практическим внедрением ее основных положений.





## SUMMARY

The thesis is entitled: "The legal status of foreigners in the Islamic Republic of Iran and the international law", presented for the degree of Doctor of Philosophy in Law, specialty: 5603.01-“International law; human rights” is a relevant, independent and complete scientific research.

The thesis consists of an introduction, three chapters, conclusion and bibliography.

In the introduction the urgency of research topics, defined purpose and main objectives of the work, its methodological basis, the theoretical and practical significance, shows the extent of a problem, set forth the scientific novelty of the thesis, formulated for the defense the main provisions are shown the results of its scientific validation.

Chapter One - "The place of the rules that form the legal status of foreigners in the universal human rights system" consists of three sections. It deals with the content of the definition of "foreigners", the main stages of the formation of the legal status of foreigners in Iran, studied international law regarding the status of foreigners, as well as the application of such rules in Iranian law, and, along with it, examines the general principles and regimes governing the legal status of foreigners on the Iran legislation. Chapter Two - "Features of foreign participation in private law relations and international law" consists of four sections. It explores issues of social security and labor rights of foreigners, their rights to marriage and family relations, property rights of foreigners in the area of foreign investment, as well as examines the legal grounds for restricting the rights of foreigners to real estate in Iran.

The third chapter - "Features of procedural and legal status of foreigners to ensure the legislation and international treaties of the Islamic Republic of Iran" is devoted to the analysis of the ratio of ensuring judicial protection of the rights and freedoms of foreigners under the laws of Iran and the international legal norms.

In conclusion, it summarizes the research results and put forward concrete proposals related to the practical implementation of its main provisions.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*на правах рукописи*

**САЛИМИ АРУЗ МАХАЛЛАХ**
**ФАРИБОРЗ МУХАММЕДРЗА оглы**

# ПРАВОВОЙ СТАТУС ИНОСТРАНЦЕВ В ИСЛАМСКОЙ РЕСПУБЛИКЕ ИРАН И МЕЖДУНАРОДНОЕ ПРАВО

Специальность: 5603.01 – «Международное право; права человека»

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание ученой**
**степени доктора философии по праву**

**БАКУ - 2018**